

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 71 (22.982)

18 aprel 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binası istifadəyə verildi





Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov çıxış edərək demişdir ki, muxtar respublikada yol infrastrukturunun idarəçiliyi sistemi böyük inkişaf yolu keçmiş, yol təsərrüfatının yenidən qurulması istiqamətində kompleks tədbirlər görülmüşdür. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilmişdir. Avtomobil Yolları Dövlət Agentliyi və onun tabeliyində olan yol istismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, yol çəkilişində istifadə üçün 38 müxtəlif təyinatlı texnika alınmışdır. Yaradılan şərait muxtar respublikada keyfiyyətli avtomobil yollarının çəkilməsinə imkan verir. Bəhruz Əsgərov agentliyin əməkdaşlarının iş şəraitinin yaxşılaşdırılmasının göstərilən dövlət qayğısının daha bir ifadəsi olduğunu bildirmiş, yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: 2018-ci il fevralın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı ilə Avtomobil Yolları Dövlət Şirkətinin bazasında Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılmışdır. Bu gün isə agentlik üçün ayrılan bina əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilir.

Ali Məclisin Sədri bu münasibətlə Avtomobil Yolları Dövlət Agentliyinin kollektivini təbrik etmiş və demişdir: Ölkəmizdə avtomobil yollarının çəkilişinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikasında da hər il 100 kilometrə yaxın yeni avtomobil yolları çəkilərək və müasir standartlar səviyyəsində yenidən qurularaq əhalinin istifadəsinə verilir. Bu il də muxtar respublikada avtomobil yollarının tikintisi davam etdirilir. Muxtar respublikada həm birinci dərəcəli yollar, həm də kənd yolları üçün layihələr hazırlanaraq tikinti işlərinə başlanmışdır.

Ali Məclisin Sədri demişdir: Yol tikintisi üçün, ilk növbədə, müasir avadanlıqlar, keyfiyyətli asfalt materialı və mütəxəssislər olmalıdır. Bu gün istifadəyə verilən binada yol tikintisi sahəsində çalışan mütəxəssislər üçün lazımi iş şəraiti yaradılıb. Hazırda keyfiyyətli asfalt istehsalını həyata keçirmək üçün müasir asfalt zavodu qurulur. Həmçinin bu il yeni yol-tikinti texnikalarının alınıb gətirilməsi nəzərdə tutulur. Yaxşı iş şəraiti, müasir texnika və keyfiyyətli asfalt təminatı avtomobil yollarının keyfiyyətlə çəkilməsinə və uzun müddət istismarına imkan verəcəkdir.



Ali Məclisin Sədri qeyd etmişdir ki, bu gün Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin qarşısında duran əsas vəzifələr avtomobil yollarının, körpülərin və digər yol qurğularının layihələndirilməsi, tikintisi, saxlanması və yenidən qurulması işlərini həyata keçirməkdən ibarətdir. Həmçinin layihə və smeta sənədlərinin ekspertizası, görülən işlərin pasportlaşdırılması və istismarı da agentliyin qarşısında duran əsas vəzifələrdir. Ona görə də Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi keyfiyyət amilinə xüsusi diqqət yetirməlidir ki, iş vaxtını çəkilmiş yolların yenidən bərpasına deyil, yeni yolların tikintisinə sərf etsinlər. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün dövlətimiz tərəfindən lazımi işlər həyata keçirilir, vəsait ayrılır, yeni texnikalar alınır. Bütün bunlar da muxtar respublikada istənilən yol-tikinti işlərinin Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilməsinə imkan verəcəkdir. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi də məhz muxtar respublikada keyfiyyətli yolların çəkilməsinə hesablanıb. Ona görə də mütəxəssis hazırlığına diqqət yetirilməli, alınan avadanlıqlar qorunmalı, onlardan səmərəli və uzun müddət istifadə olunmalı, tikinti işləri keyfiyyətlə aparılmalıdır.



"Bu gün ölkəmizdə, eyni zamanda muxtar respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşmasının nəticəsidir ki, avtomobillərin sayı günbəgün artır. Bu da yeni avtomobil yollarının çəkilməsini və tikinti işlərinin keyfiyyətlə yerinə yetirilməsini zəruri edir", – deyən Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 21 iş otağı, 50 yerlik akt zalı, arxiv, anbar, 8 ehtiyat otaq və bufet yerləşir. Binada agentliyin aparatı ilə yanaşı, "Siqnal" ixtisaslaşdırılmış layihə istehsalat qrupu üçün də iş şəraiti yaradılmışdır. İş otaqları kompüter dəstləri və digər avadanlıqlarla təmin olunmuşdur.

Binada istilik sistemi qurulmuş, həyətdə abadlıq işləri aparılmış və 5 qaraj istifadəyə verilmişdir.

Ali Məclisin Sədri Avtomobil Yolları Dövlət Agentliyi üçün alınan yeni texnikalara baxmışdır. Bildirilmişdir ki, 2 ədəd "CAT" markalı qazıcı və yükləyici, 3 ədəd yol nişanları vuran avtomobil yol-tikinti işlərində yüksək iş göstəricilərinə malikdir. Yeni texnikalar Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın rayon və kəndlərində yol tikintisi zamanı istifadə olunacaqdır.

Ali Məclisin Sədri yeni texnikalardan səmərəli istifadə olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının təbiəti" mövzusunda məşğələ keçirilib

***AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti, sayca 78-ci məşğələsi "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının təbiəti" mövzusuna həsr olunub.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin Azərbaycan təbiətinə daim xüsusi önəm verdiyini söyləyib. O, dahi şəxsiyyətin ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi üçün müxtəlif illərdə qəbul etdiyi qanun və qərarlardan, görkəmli dövlət xadiminin təşəbbüsü ilə ölkəmizdə qoruq və yasaqlıqların yaradılmasının əhəmiyyətindən danışıb.

Lektoriyada "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının təbiəti" mövzusunda məruzə ilə çıxış edən bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikada həyata keçirilən qlobal təbiəti mühafizə tədbirlərinin təşəbbüskarı və təşkilatçısı olub. Həmin illərdə ekologiya, təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair çox mühüm 8 qanun və 32 qərar qəbul olunub. Dahi liderin ikinci dəfə hakimiyyətə gəlməsi ilə Azərbaycan təbiətinin qorunması, bərpası və zənginləşdirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilib.

Akademik Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, təbiəti, flora və faunası, mühafizə olunan təbiət əraziləri barədə də məlumat verib, son illərdə onların qorunması istiqamətində görülən məqsədyönlü tədbirlərdən danışıb. Qeyd olunub ki, 1990-1993-cü illərdə – görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində olduğu dövrdə muxtar respublikada ilk dəfə olaraq iməciliklərə start verilmiş, yaşıllaşdırma işlərinə bu kompleks yanaşma tədbirləri gözəl ənənəyə çevrilmişdir. Bioresurslar İnstitutunun direktoru məruzədə institutda təbiətin əsrarəngiz zənginliyinin öyrənilməsini, onun mühafizəsinə dair tədqiqatların aparıldığını da diqqətə çatdırıb.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# "Caspian Energy" jurnalının Naxçıvan Muxtar Respublikasına həsr olunmuş nömrəsinin təqdimat mərasimi keçirilib

*Aprelin 17-də Caspian Energy International Media Group və Caspian European Club Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyi ilə birlikdə "Caspian Energy" jurnalının Naxçıvan Muxtar Respublikasının lider olduğu Azərbaycanın iqtisadi regionlarının illik investisiya reytinqinin nəticələrinə həsr olunmuş xüsusi buraxılışının təqdimatını keçiriblər.*

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycandakı diplomatik missiya rəhbərləri, həmçinin Caspian European Clubun idarə heyətinin və üzv şirkətlərinin nümayəndələri iştirak ediblər.

Caspian European Clubun Sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev xatırladıb ki, sözügedən reytinqdə regionlar 18 parametr üzrə altı qrupa bölünüblər: sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı. "Bu reytinqi biz bir neçə il ərzində Caspian European Clubun Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev üçün hazırlamışıq. Ötən ildən etibarən investisiya reytinqini "Caspian Energy" jurnalının yekun nömrəsində dərc edirik", – deyə Telman Əliyev əlavə edib. O diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin səfirlərinin "Caspian Energy" jurnalına verdikləri müsahibələr zamanı Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını xüsusilə vurğulayaraq, muxtar respublika rəhbərinin alternativ və bərpaolunan enerji mənbələrinə, həmçinin innovasiya texnologiyalarının tətbiqinə və turizmin inkişafına göstərdiyi diqqətdən valeh olduqlarını qeyd ediblər. Naxçıvanda istehsal olunan məhsulların müxtəlifliyi və yüksək keyfiyyəti, həmçinin yerli iqtisadiyyatın inkişafı və regional məhsul çeşidlərinin diversifikasiyası üçün göstərilən səylər səfirlərdə yüksək təəssürat oyadıb. Onlar sənaye məhsullarının çeşidlərinin davamlı artırılması prosesinin Azərbaycanın digər regionlarında da getdiyindən əminliklərini ifadə ediblər.

Çıxışının sonunda Telman Əliyev "Caspian Energy" jurnalının bu nömrəsinin dünyanın 70 ölkəsinin dövlət və hökumət başçılarına, həmçinin dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının və aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərlərinə təqdim olunacağını bildirib.

Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi tədbirlərin Naxçıvan Muxtar Respublikasında da yüksək səviyyədə icra olunduğunu qeyd edib. Onun sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elmi-mədəni, quruculuq-abadlıq, sənaye və kənd təsərrüfatı, həmçinin turizm, nəqliyyat və rabitə, infrastruktur, ordu quruculuğu sahələrində, məhsul istehsalının artımı və əhalinin həyat şəraitinin yüksəldilməsi istiqamətində mühüm nəticələr əldə edilib. O, qazanılan nailiyyətlər sayəsində muxtar respublikanın iqtisadi potensialının xeyli artdığını qeyd edib.



"Caspian Energy" jurnalının Naxçıvan Muxtar Respublikasına həsr olunan xüsusi nömrəsində Naxçıvan məhsullarının müxtəlifliyi və yüksək keyfiyyəti, həmçinin muxtar respublikada iqtisadiyyatın inkişafı üçün göstərilən səylər öz əksini tapıb. Sənaye məhsullarının çeşidlərinin davamlı artırılması prosesi illər üzrə göstərilib, iqtisadiyyatın bütün sahələri üzrə dövlət və özəl sektorda qazanılmış uğurlar sxemlər və diaqramlarla verilib. Azərbaycanın regionlarının inkişafına uzunmüddətli investisiyaların cəlbi üçün əlavə təkan verə biləcək potensial partnyorlar, həmçinin Naxçıvanda istehsal olunan məhsul və xidmətlərlə bağlı məqalə və müsahibələrə də geniş yer verilib. Aparıcı ekspertlərin analitik material və xülasələrinin də bu jurnalda çap olunduğunu nəzərə alsaq, Naxçıvana həsr olunmuş xüsusi nömrənin nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha görərik", – deyə Bəxtiyar Əsgərov çıxışına yekun vurub.

Təqdimat mərasimində həmçinin Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Mirzəzadə çıxış edərək Naxçıvan Muxtar Respublikasında yüksək iqtisadi nailiyyətlərin əldə olunduğunu nəzərə çatdırıb. Onun sözlərinə görə, bütün bunlar əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf siyasətinin nəticəsidir. "Coğrafi baxımdan uzaqda yerləşməsinə baxmayaraq, Naxçıvan Azərbaycanın ürəyidir", – deyən deputat, həmçinin Türkiyə və digər ölkələrin böyük dəstəyini də qeyd edib. Deputat Aydın Mirzəzadə investisiya reytinqinin lideri seçildiyinə görə Naçıvan Muxtar Respublikasını təbrik edərək daha böyük uğurlar arzulayıb.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral deyib ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlərin mühüm hissəsini Türkiyə və Naxçıvan əlaqələri təşkil edir. "Uzun illər ərzində formalaşmış bu əlaqələr hazırda da fəal şəkildə inkişaf edir. Biz Naxçıvanın Türkiyə bazarında iştirakını və bunun nəticəsində ticari əlaqələrin və turizm əməkdaşlığının inkişaf etdiyini görürük", – deyə səfir bildirib. Çıxışının sonunda səfir Erkan Özoral Naxçıvanı daha yaxşı tanımaq üçün yaradılmış imkana görə Naxçıvan Muxtar Respublikasına və Caspian European Cluba minnətdarlığını bildirib.

Fransanın Azərbaycandakı səfiri Aurelia Buşez 2017-ci il oktyabrın 18-19-da Naxçıvanda olduğunu qeyd etmişdir. O, "Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ilə görüşdüm. Bu səfər bütün sahələrdə ikitərəfli əlaqələri müzakirə etmək üçün əla imkan oldu", – deyib. Həmçinin Naxçıvan iqtisadiyyatının inkişaf dinamikasını qeyd edən səfir bir neçə yerli müəssisə ilə yanaşı, baş çəkdiyi Naxçıvan Biznes Mərkəzinin fəaliyyətinin buna sübut olduğunu bildirib.

Argentinanın səfiri Karlos Dantes Riva Naxçıvana üç dəfə səfər etdiyini qeyd edib. "Naxçıvana səfərim – səfir qismində məni ən çox təsirləndirən istər hökumət nümayəndələri, istərsə də Naxçıvanın dostsevər əhalisi tərəfindən göstərilən səmimi və isti münasibət oldu. Naxçıvanla əlaqələrin möhkəmləndirilməsində maraqlı olduğumu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovla bölüşdüm. Fürsətdən istifadə edib "Caspian Energy"nin tərtib etdiyi investisiya reytinqində ən yüksək nəticə əldə etdiyinə görə Naxçıvan Muxtar Respublikası əhalisini ürəkdən təbrik edirəm".

Hindistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sancay Rana deyib ki, inkişaf etmiş sənaye infrastrukturu və kənd təsərrüfatı istehsalat bazası sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının iqtisadiyyatında yüksək mövqe tutur. Səfirin sözlərinə görə, Naxçıvana səfəri zamanı o, burada daşduz, dolomit, sink, qurğuşun, inşaat materialları, mərmər konstruksiyalar, plastik materiallar, çuqun, rəngli metal və sair istehsal edən çoxsaylı sənaye müəssisələrinin fəaliyyət göstərdiyinin şahidi olub. "Naxçıvanda ət, süd məhsulları, bal, şərab, konservləşdirilmiş meyvə və şirələr də daxil olmaqla, qida ərzaqlarının və kənd təsərrüfatı məhsullarının istehsalı yüksək inkişaf edib. Əhalinin yaşayış səviyyəsi də yüksəkdir. Naxçıvan yüksək səviyyəli təhsil və tibb müəssisələri ilə fəxr edə bilər. Nəqliyyat infrastrukturu Naxçıvanı İran, Türkiyə və Gürcüstanla əlaqələndirir. Hazırda Naxçıvanı yüksək ixracat potensialı ilə təmin edən nəqliyyat infrastrukturunun gələcək inkişafı həyata keçirilir", – deyən Hindistanın səfiri Sancay Rana çıxışına yekun vurub.




Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli çıxışı zamanı prezident seçkilərində cənab İlham Əliyevin qələbəsindən sonra bu cür tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb. O bildirib ki, İlham Əliyevin qələbəsi cənab Prezidentin ölkənin bütün iqtisadi regionlarının inkişafı istiqamətində həyata keçirdiyi uğurlu siyasəti bir daha nümayiş etdirir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Elşən Musayev qeyd edib ki, cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən islahatların Naxçıvan Muxtar Respublikasının yüksək nəticələr əldə etməsində və investisiya reytinqində lider seçilməsində mühüm rolu olub.

Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Şerzod Fayziyev jurnalın sözügedən nömrəsinin məzmunu ilə tanış olduğunu bildirərək qeyd edib ki, bu buraxılış oxucuya Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının tam mənzərəsi ilə tanış olmaq imkanı yaradır və Naxçıvanda heç vaxt olmayan şəxs bura barədə kifayət qədər ətraflı məlumat əldə olur. O, həmçinin vurğulayıb ki, bu gün Azərbaycanın hər bir guşəsi sürətlə inkişaf edir. "İyunun 20-də Naxçıvanda keçirilməsi planlaşdırılan Naxçıvan – İslam Mədəniyyətinin Paytaxtı tədbiri bir daha muxtar respublikanın sürətli inkişafını əyani şəkildə nümayiş etdirir. Əminəm ki, Naxçıvan Muxtar Respublikası daha böyük nəticələrə nail olacaq", – deyə səfir çıxışına yekun vurub.

Tədbirdə, həmçinin Malayziyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dato Roslan Tan Sri Abdul Rahman, Moldovanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Georgi Leuka, həmçinin İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Xose İqnasio da çıxış edərək təəssüf hissilə Naxçıvan Muxtar Respublikasında olmadıqlarını vurğulayıb, lakin yaxın vaxtlarda Naxçıvana səfər etmək niyyətində olduqlarını bildiriblər.

Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova Naxçıvan Muxtar Respublikası ilə xarici dövlətlər arasındakı beynəlxalq əlaqələrin inkişafına verdiyi töhfələrə, işlərin irəliləyişinə və investisiya imkanlarının genişləndirilməsinə görə Caspian European Clubun fəxri üzvlük sertifikatı təqdim olunub.

Sıralarında dünyanın 70 ölkəsindən olan 5 mindən artıq şirkət və təşkilatı birləşdirən Caspian European Club 2002-ci ilin iyununda Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən nəhəng neft-qaz şirkətlərinin dəstəyi və Caspian Energy İnternational Media Groupun fəal iştirakı ilə yaradılıb. 2016-cı il dekabrın 24-də Caspian American Club, 2018-ci il yanvarın 26-da Caspian Asian Club təsis olunub. Hər iki təşkilat iki il ərzində Caspian European Clubun idarə heyətinin üzvləri tərəfindən idarə olunacaqlar. Caspian European Cluba daxil olan bütün şirkətlər avtomatik qaydada Caspian American Club və Caspian Asian Clubun üzvləri, Caspian American Club və Caspian Asian Cluba daxil olanlar isə Caspian European Clubun üzvləri hesab olunurlar.

Caspian European Clubun Sədri Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevdir.

"Caspian Energy" dünyanın 70 ölkəsində yayılır. 19 il ərzində jurnalda dünyanın müxtəlif dövlətlərinin prezident və baş nazirlərinin, həmçinin nüfuzlu beynəlxalq təşkilat və nəhəng transmilli şirkət rəhbərlərinin müsahibələri, aparıcı ekspertlərin analitik material və xülasələri çap olunur. Müxtəlif qiymətləndirmələrə görə, Xəzər-Qara dəniz və Baltik regionlarının aparıcı nəşrlərinin ilk beşliyinə daxil edilmiş "Caspian Energy" jurnalı Xəzər-Qara dəniz və Baltik regionlarının bir çox investorlarının fəaliyyətində əsas oriyentir rolunda çıxış edir.

**Caspian European Clubun mətbuat xidməti**

---

## *"Ən yaxşı tank heyəti"* adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun tankçıları birinci oldular



*2018-ci ilin döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusu üzrə keçirilmiş "Ən yaxşı tank heyəti" adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun tankçıları yüksək nəticələr əldə ediblər.*

Yarışın ümumi nəticələrinə əsasən Əlahiddə Ümumqoşun Ordunun tankçıları xüsusi peşəkarlıq göstərərək 1-ci yerdə qərarlaşıblar. Tank heyətində tank komandiri, gizir Nicat Mehdiyev, tuşlayıcı-operator, gizir Ceyhun Şıxzadayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Tural Mərdanlı olublar.

Yarışlar çərçivəsində keçirilmiş praktik atışların nəticələrinə görə də tank komandirləri – gizir Əlikərəm Bədəlov və gizir Nicat Mehdiyev 1-ci yerə layiq görülüblər.

Yüksək nəticələr əldə etmiş tankçılar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun tankçıları 2016-cı və 2017-ci illərdə Rusiya Federasiyasının Alabino təlim mərkəzində təşkil olunan Beynəlxalq Ordu Oyunları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində də iştirak ediblər. Müsabiqədə yüksək peşəkarlıq göstərən tankçılar – gizir Əlikərəm Bədəlov yarışa cəlb olunan şəxsi heyət arasında ən yaxşı tank komandiri, gizir Ceyhun Şıxzadayev ən yaxşı tuşlayıcı-operator seçilib, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Tural Mərdanlı da uğurlu nəticə göstərib.

**Nəriman NƏCƏFOV**

---

*Şahbuz şəhərindəki "Araz" kinoteatrının binasında keçirilən tədbiri rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov açaraq muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən danışıb.*

## Növbəti əmək yarmarkası Şahbuz rayonunda təşkil edilib

Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev çıxış edərək bildirib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, yüzlərlə işaxtaran müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına müraciət edənlərin sayının çox olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

Sonda yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 17-si özəl, 14-ü dövlət olmaqla, 31 təşkilatdan 134 boş iş yerinin çıxarıldığı yarmarkada 15 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**



*18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Muxtar respublikamızda tarixi-mədəni irsimiz qorunub yaşadılır

*Hər il aprelin 18-i Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur.*

Ölkəmiz bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdəndir. Xalqımızın tarixi qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapıb. Əcdadlarımızın yadigarı olan abidələr Azərbaycan xalqının keçmişinin, qədim mədəniyyətinin göstəricisi, minilliklər boyu bu torpaqlarda yaşadıqlarını sübut edən daş yaddaşıdır.

***"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir"***, – deyən ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə tarixi-mədəni irsimizin qorunub saxlanılması üçün böyük işlər görülmüş, zəngin qanunvericilik bazası yaradılmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcu kimi təsbit olunmuşdur. Bundan əlavə, 10 aprel 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda abidələrin qorunmasının dövlət təminatı, onların əhəmiyyət dərəcələri, tədqiqi və mühafizəsi öz əksini tapmışdır.



Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə tarixi abidələrimizin bərpası, qorunması və tədqiqi mühüm tədbirlər sırasına çəkilmişdir. Bir sıra tarixi abidələrimiz YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı təsdiq edilmişdir.



Naxçıvan xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən mağaralar, yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir. Qayaüstü təsvirlərin qeydə alındığı Gəmiqaya abidəsi Naxçıvanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi mədəniyyətinin canlı ensiklopediyasıdır. Gəmiqayanın 1500-ə qədər qayaüstü rəsmləri, müxtəlif kompozisiyalı təsvirlərlə birlikdə həndəsi işarələri, piktoqrafik yazıları insan təfəkkürünün, estetik baxışlarının, dünyagörüşünün, təsəvvürlərinin bu günə çatdırılması baxımından əvəzsiz mənbədir.

Naxçıvan ərazisində mövcud olan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Qazma mağarası, Kilit mağarası, I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Gəmiqaya, Xaraba Gilan, Quyulu dağ, Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu, Gülüstan türbələri, Əlincə qalası, Ovçular təpəsi, Oğlanqala, Xələc, Fərhad evi, Naxçıvanqala, tarixi təbiət abidələrindən – Haçadağ, Batabat, Duzdağ, Babək qalası, Dəvəboynu və başqa yüzlərlə abidə keçmişimizi bu günə daşıyan, maddi və mənəvi həyatımızın güzgüsü rolunu oynayan sənət və təbiət inciləridir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək deyirdi: ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".***

Bu gün dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli Sərəncamına uyğun olaraq Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqinə stimul vermiş, bu dövrdə 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Abidələr təkcə tarixin yaddaşı və yadigarları deyil, eyni zamanda maddi-mədəniyyət nümunələridir. Ona görə də onların qorunması və gələcək nəsillərə çatdırılması olduqca vacibdir. Son illər qədim diyarımızda 60-dan çox abidəyə ikinci həyat verilmiş, Möminə xatın türbəsi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində əsaslı təmir işləri aparılmış, Yusif Küseyir oğlu türbəsi və Nuh Peyğəmbərin məzarüstü türbəsi, imamzadələr, muxtar respublika ərazisindəki qədim hamamlar və buzxanalar, "Came" məscidi, Zaviyə mədrəsəsi, Xan sarayı, Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci ildə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında", 2016-cı ildə "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" imzaladığı sərəncamlar da tariximizin və mədəni irsimizin öyrənilməsi, təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir.



Hazırda Kəngərli rayonunda XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndində XVIII-XIX əsrlərə aid Şərq hamamının bərpası davam etdirilir. Babək rayonunun Nehrəm kəndində XVIII əsrin yadigarı olan İmamzadənin və Naxçıvan şəhərində XVIII əsrə aid İmamzadə Kompleksinin bərpası başa çatdırılıb. Bundan başqa, son illərdə qədim diyarımızda möhtəşəm türk-islam memarlığı abidələri olan məscidlər inşa olunaraq istifadəyə verilmişdir.

Muxtar respublikada abidələrimizin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ", 2016-cı ildə "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzularında beynəlxalq simpoziumların və konfransların keçirilməsi, bu mənada, mühüm əhəmiyyət daşıyır. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beşminillik tarixi əhatə edən Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Muxtar respublikada aparılan arxeoloji ekspedisiyalarda ABŞ, Fransa, Türkiyə, Macarıstan və başqa ölkələrin arxeoloqları iştirak edirlər. Muxtar respublikamızdakı abidələrin öyrənilməsi və təbliği sahəsində də əhəmiyyətli işlər görülür. 2008-ci ildə "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr edilməsi təkcə Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Ensiklopediya Naxçıvan abidələrinin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbədir. Son illər nəşr olunan "Naxçıvan tarixi atlası", "Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi, "Gülüstan türbəsi", "Əlincəqala", "Dədə Qorqud yurdu Naxçıvan: tarixi-coğrafi və etnoqrafik atlas", "Naxçıvan - türk-islam mədəniyyəti abidələri" və başqa çoxsaylı kitablar bu sahədə görülən işlərin ardıcıllığını göstərir.

Naxçıvanın abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasında əhəmiyyətli rol oynayır. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər baxımından səyahət turizminin ən ideal məkanlarındandır. Muxtar respublikaya səfər edən hər bir turist buradan xoş təəssüratla ayrılır.

*Hər bir xalqın qədimliyi onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır. Tarixi-mədəni irsimizi qorumaq isə hər birimizin borcudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***



*Yurdumuzun nemətləri*

# Uca dağlarımızın, geniş düzlərimizin tükənməz sərvətləri

***Muxtar respublikamız əsrarəngiz təbiəti ilə məşhur olduğu kimi, bu diyarın yetirib-bitirdiyi nemətlər də dad-tamı, keyfiyyəti ilə də dillər əzbəridir. Günəşin bol olduğu muxtar respublikanın dəniz səviyyəsindən minlərlə metr yüksəklikdə yerləşən kəndlərində dağın-daşın, çölün-çəmənin hər bir otu, gülü-çiçəyi gözəlliyi ilə gözlərimizi oxşadığı kimi, həm də min bir dərdin dərmanı, məlhəmidir. Çaşır, bolu, baldırğan, uşqun, çiriş, cacıq, qazayağı, əvəlik, ələyəz, bulaqotu, yarpız, nanə, kəklikotu... Adlarını saymaqla bitməyən əvəzsiz, hər biri bir dərdin dərmanı, ağız ləzzəti olan bu bitkilərin yetişmə dövrünü təbiət elə nizamlayıb, sıralayıb ki, erkən yazdan qar yerə düşənədək insanlar həmin bitkilərdən yararlanır, hələ üstəlik qış üçün də tədarük edirlər.***



Zənginliyini bu doğma təbiətdən alan Naxçıvanın mətbəxini diyarımızın dağlarında, dərələrində, düzlərində bitən, hər biri bir dərdə çarə olan bitkilərdən hazırlanan yemək nümunələri tərkibi, dad-tamı ilə daha da məşhurlaşdırıb. Elə Naxçıvanda insanların uzunömürlülüyünün sirri də gözəl iqlim, saf, təmiz hava, tərkibi vitamin və minerallarla zəngin olan nemətlər, bir sözlə, sağlam ekoloji mühit və mədəni həyat tərzi ilə bağlıdır.

Adlarını sadaladığımız yabanı bitkilərdən qidalana bildiklərimizə Naxçıvanda "pencər" deyirlər. Bu pencərlərin hər birinin öz yığılma vaxtı, bişirilmə qaydası, qışa tədarük edilmə üsulu var. Dünyagörmüş insanlar deyərlər ki, yazın gəlişində çöl pencərlərinin torpaqdan baş qaldıran vədələri olur. Ancaq hökmən göy gurlamasını gözləməlisən. Göy ki bircə dəfə gurladı, kürsü başındakı nurani-pirani babalar sevincək yerlərində qurcalanarlar: – "cücərən nə varsa, artıq yeyilə bilər, göy gurladı". Onlar deyərlər ki, göy gurlamadan cücərənlərin yeyilməsi haramdır. Gərək yazın gəlişindən torpaq da ağırlıqdan çıxa, təzələnə. Bu səda isə göydən gələr.

Artıq bu yaz da göylər gurlayıb, günəşin zərrin şəfəqləri ilə torpağın altından boylanan çöl pencərlərinin yığılmalı, yeyilməli vədəsi yetişib. İndi Şərur, Culfa, Sədərək, Ordubad, Şahbuz və digər rayonlarımızdakı dağlar, düzlər səxavətlə yenə də "qapılarını" bu sərvətlərin sahiblərinin üzünə açıblar. Önlüklü qız-gəlinlərimiz qucaq-qucaq qazayağı, cacıq, yarpız, xıncılovuz, çiriş, kəvər, quzuqulağı yığır, yurdumuzun yaz süfrəsini pencər qovurması, kükü, kətə, qutab və sair yeməklərlə bəzəyirlər.

Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yaşayan Südabə Məhərrəmova öz ailə üzvləri ilə yazda əvəlik, ələyəz, şıppır ( buna rayonun ayrı-ayrı kəndlərində "şep", "dikcə" də deyirlər) yığır, qışa tədarük edir, bazara çıxarırlar. Südabə xanım deyir ki, elə ki, yaz gəldi, süfrəmizdən pencər əskik olmaz. Ya kətə, qutab bişirər, ya da pencər qovurarıq. O, maraqlı bir məqamı da vurğulayaraq dedi: – Şahbuzda hər qadın qışdan yaza ət qovurması saxlayar ki, yazda qazayağı, cacıq, şıppırı onunla bişirsin. Bunun dadı bir başqa olur. Pencərin ət qovurması ilə necə bişirilməsi qaydası haqqında da danışan Südabə xanım dedi ki, pencəri təmiz yuyub, doğrayıb qaynadır, azacıq sıxırsan ki, suyu getsin, duz, istiot vurursan. Ət qovurması ilə soğandağı edib pencəri üstünə tökür, bir az tovlayıb, üzərinə yumurta vurursan. Bu cür bişirilən pencər qovurması adi soğandağı ilə bişiriləndən daha dadlı olur. Həmsöhbətim şıppırla bişirilən dolmadan da danışdı. Dedi ki, şıppır mövsümü ola, heç olmasa, bircə dəfə şıppır dolması bişirməyəsən, elə bil o yaz ağzının dadını qaçırdın. O, dolmanın bişirilməsi ilə bağlı bildirdi ki, tərkibi Naxçıvanda yaz vaxtı bişirilən "dəli" dolma, yəni ətsiz dolma ilə eynidir, lakin buna istəyə görə cəviz əlavə edənlər də olur, bir də dolma şıppır yarpaqları ilə bükülür.

Şıppır Şahbuz rayonunun Batabat yaylağında, Kükü kəndindəki "Qanlıgöl" adlanan yerdə, Biçənək, Yuxarı Qışlaq yaylaqlarında daha çox bitən bitkilərdəndir. Südabə xanım pencər mövsümündə muxtar respublikanın digər rayonlarından da bu yerlərə maşınların gəldiyini söyləyir.

1990-cı illərin çətin günlərini bir daha yada salan Aşağı qışlaqlı Zərnişan Məmmədova söhbətə qoşularaq deyir: – 1990-cı illər Naxçıvanın ən ağır illəri idi. Ümidimiz hər yerdən kəsilmişdi. Həmin illərdə övladlarımızı bu dağın-daşın pencərləri xilas etdi. Yaz, qış həm bişirdik yedilər, həm də bazara çıxarıb digər ehtiyaclarımızı azacıq da olsa, ödədik. Zərnişan xanım uzun illərdən bəri kənd camaatının bu pencərlərdən həm də Naxçıvanda, Bakıda yaşayan bacı-qardaşlarına, qohumlarına pay tutduqlarından da danışdı. Dedi ki, bu yerlərin nemətlərinin dadını bilən insanlar üçün ən gözəl hədiyyə 1-2 hörük ələyəz, şıppır, bir ovuc yarpız, kəklikotudur.

Kolanı kəndindən olan Pərvanə Yusifova deyir ki, Bakıda yaşayan həmkəndlilərimiz hər yaz 3-5 günlük bura gəlirlər. Onlar deyirlər ki, qazayağını, cacığı, xıncılovuzu, yarpızı öz əllərimizlə yığıb yemədiksə, dadını ala bilmirik. Ona görə də hər yaz gəlib dağlara üz tutur, yurdumuzun təmiz havasını ciyərlərimizə çəkə-çəkə bu nemətlərdən yığır, evlərimizə aparırıq. Hələ üstəlik Azərbaycanın başqa bölgələrindən olan qonşularımıza da bu nemətləri tanıtmışıq. Naxçıvandan əlidolu qayıtmağımızı onlar da hər yaz səbirsizliklə gözləyirlər.

Bu xanımları dinlədikcə 5 övlad böyütmüş Aşağı qışlaqlı Tutu nənənin bir vaxtlar söylədiklərini də xatırladım. O, üzünü dağlara tutub deyərdi: – Baxın, bu dağlar, daşlar, yaşıllıqlar tək gördüyünüz təbiət gözəlləri deyil, onlar həm də bizim ruzi mənbəyimizdir. İkinci Dünya müharibəsinin aclıq və səfalət dolu illərində bu dağlar bizim xilaskarımız olub. Uşaqlarımızı bu dağın, dərənin nemətləri ilə böyütmüşük. Bu nemətlər həm yazda-yayda, həm də qışa tədarük edilməklə çıxış yolumuz olublar.

İndi çöl pencərlərindən qazayağı, cacıq qovurmasının, quzuqulağı, yarpız, bulaqotu dürməyinin, kəvər, qırxbuğum, xıncılovuz, çiriş kətəsinin, yarpızlı-göyərtili kükü yeməyinin vədəsidir. Bir azdan qışda bir hörüyü əl-əl axtarılan ələyəzin mövsümü, yay-qış gözə işıq, qola qüvvət, damağa dad verən əvəliyin, şıppırın yığım dövrü başlanacaq. Onun ardınca şorabası tutulan, qışda süfrələrimizi onlarsız təsəvvür edə bilmədiyimiz çaşır, baldırğan, şomu və bolunun mövsümü gələcək. Bir azdan qar yağanadək bir-birinin ardınca dağlarımızda, düzənlərimizdə yetişən min bir adda olan dərman bitkilərimizin yığımına başlayacağıq. Həmərsin çiçəyindən, meyvəsindən, yemişandan hazırlanan mürəbbələr Naxçıvanın milli mətbəxinin ən füsunkar nemətlərindəndir. Kəklikotu, çobanyastığı, yarpız, solmazçiçək, həmərsin və sair bitki çayları əhval-ruhiyyəyə, əsəb-sinir, immun, həzm sisteminə müsbət təsir etməklə yanaşı, həm də insanı cavan, gümrah saxlayan zəngin tərkibli bitkilərdir. Bu bitkilər, eyni zamanda onların tədarükü ilə məşğul olaraq bazarlara çıxaran ailələrimizin illərdir ki, hər il ailə gəlirlərini də artırmağa imkan yaradıb.

Naxçıvanın möcüzəli təbiəti, xüsusilə dağları burada yaşayan insanların ruzi mənbəyidir. Bəzən düşünürsən ki, bu nə sirdir, axı dünyanın heç bir yerində dağlar insanlara bu qədər nemət bəxş etməyib? Bəlkə, bu, Azərbaycan qadınının tarixən dağlarımıza baxarkən onu ulu babası, atası hesab edərək yaşmaqlanması ilə əlaqədardır? Deməli, dağlarımız da zaman-zaman onların ata evlərinə çevrilib. Ata evinə üz tutansa, heç vaxt əliboş qayıtmaz.

Bəli, təbiət gözəli Naxçıvanın nemətləri tükənməzdir. Bu tükənməzliyin qədirbilənləri isə hər il yazdan qışadək ruzi mənbəyi kimi üz tutub nemətləri ilə bəhrələnən insanlar olmalıdır. Min adda, min dadda olan bu nemətləri elə dərib, elə toplamalı, onları düzgün dərə bilməyənlərə elə məsləhətlər verməli, biganə yanaşanları elə qınaq etməliyik ki, dağlarımız, düzlərimiz bizdən "razı" qalıb, gələcək yazlarda da ruzili, bərəkətli "qollarını" bizlərə yenidən açsınlar.

**Mətanət MƏMMƏDOVA**

***17 aprel dünyanın 116 ölkəsində Hemofiliya Günü kimi qeyd olunur. Məqsəd ictimaiyyətin diqqətini belə xəstələrin problemlərinə cəlb etməkdir.***

# Ümumdünya Hemofiliya Günü qanvermə aksiyası ilə qeyd olunub

Muxtar respublikamızda hemofiliyalı və talassemiyalı xəstələr dispanser qeydiyyata alınıb, onlara əlillik qrupları təyin olunub. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Hematoloji şöbəsində 69 nəfər hemofiliyalı, 35 nəfər talassemiyalı xəstə qeydiyyatdadır.

Hemofiliyalı və talassemiyalı xəstələr üçün qanvermə aksiyalarının keçirilməsi bu sahədə davam etdirilən tədbirlərin tərkib hissəsi olmaqla, şəfqət və humanizmin parlaq təcəssümüdür. Belə tədbirlərdən biri aprelin 17-də Şərur Rayon Mərkəzi Xəstəxanasında keçirilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanası Qan bankının həkim hematransfuzioloqu Əli Ələsgərov qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb.

Sonra səhiyyə işçilərindən "Çoxlarının həyatının xilası sənin qanının təhlükəsizliyindədir" devizi altında qan götürülüb. Aksiyada 22 donordan götürülən 11 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda Qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Poliatlon çoxnövçülüyü üzrə muxtar respublika birinciliyi yekunlaşıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Atıcılıq Federasiyasının birgə təşkil etdiyi "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin final mərhələsinə yekun vurulub.

Naxçıvan Atıcılıq Mərkəzində keçirilən Şərur, Sədərək, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli rayonları və Naxçıvan şəhər məktəblilərinin mübarizə apardığı yarışda hər komanda 5 nəfərdən ibarət heyətlə çıxış edib. Birincilik uğrunda mübarizədə məktəblilər yarışın reqlamentinə əsasən 5 növdə qüvvələrini sınayıblar. İlk olaraq onlar 100 metr və 2000 metr məsafəyə qaçışda yarışıblar. Digər növdə isə məktəbli gənclər fiziki güclərindən istifadə ediblər. Əvvəlcə turnikdə dartınan yarış iştirakçıları ardınca atıcılıqda məharətlərini göstəriblər. Son olaraq isə məktəblilər üzgüçülük növündə birinciliyin qalibi adını qazanmağa çalışıblar.

"Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə birinciliyin final mərhələsinin qalibi 840 xalla Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin "Naxçıvan" komandası olub. Digər iki pillədə isə 743 xalla Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin və 708 xalla Ordubad rayon Sabirkənd tam orta məktəbinin komandaları qərarlaşıblar.

Qeyd edək ki, qalib komanda Naxçıvan Muxtar Respublikasını Azərbaycan çempionatında təmsil edəcəkdir.

# Atletlər arasında yarış keçirilib

***Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəblərinin qız atletləri arasında yüngül atletika birinciliyi keçirilib.***



Yarışda 20 məktəbin komandası mübarizə aparıb. Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda Roza Süleymanlı, Ramidə Novruzova, Könül Xudadanova, Elmira Əlizadə və Leyla Musazadə müvafiq olaraq 60, 100, 200, 300, 400 metr üzrə məsafədə bütün rəqiblərini qabaqlayıblar.

Komanda hesabında isə qalib adını Naxçıvan Qızlar Liseyinin komandası qazanıb. 15 nömrəli tam orta məktəbin komandası ikinci, 16 nömrəli tam orta məktəbin komandası isə üçüncü olublar.

Sonda yer tutan komanda və idmançılara təşkilatçıların diplomları və Yüngül Atletika Federasiyasının hədiyyələri təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda respublika elmi konfransı keçiriləcəkdir.

Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

*1. Heydər Əliyev və müasir təhsil*

*2. Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu*

*3. Təhsilin müasir tələbləri və tərbiyə məsələləri*

*4. Fənlərin tədrisi texnologiyaları.*

Konfransda respublikanın ali və orta təhsil müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər. Məruzələrin adı bölmələrin adı ilə üst-üstə düşməməlidir.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1 santimetr intervalla, 14 şriftlə (Times New Roman), formatı – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 santimetr olmaq şərti ilə 1-3 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri və e-mail ünvanı məqalənin adının altında yazılmalıdır.

Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 3 may 2018-ci il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 8 may 2018-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi, 31.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: (+99036)545-32-02***

## İtmişdir

Kəngərli rayon Çalxanqala kənd sakini Məmmədov Məmməd Musa oğlunun adına olan $69^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 286